# GÖYƏRÇİN

İSSN-0207-4710

2

2024



RAFİQ YUSİFOĞLU

## VƏTƏNİ DƏ SEVİRSƏN

Bulaqları, çayları,
Fəsilləri, ayları,
Çiçəkləri, gülləri,
Dənizləri, gölləri,
Şəhərləri, kəndləri,
Bərələri, bəndləri,
Quşların nəğməsini,

Tarın incə səsini,
Ananın laylasını -
Qızım, sayım hansını?!
Ən adi yarpağı da,
Daşı da, torpağı da,
Sevirsənsə əgər sən,
Vətəni də sevirsən…

## ƏBƏDİ MƏŞƏL

Uşaqlar, tez-tez gəlin
Siz Fəxri xiyabana.
Baxın, əbədi məşəl
Şəfəq saçır hər yana!

Kim qoşulsa el üçün,
Vətən üçün yürüşə.
Özü heykələ dönər,
Arzuları günəşə.

Xəyal gah Qarabağa,
Gah Zəngəzura uçur.
Bu məşəl günəş kimi
Hər tərəfə nur saçır…

## ARXEOLOQ

Uzaq yeri yaxın elə,
Babalardan soraq gətir.
Qazaq yeri, üzə çıxsın
Tariximiz sətir-sətir…

Düşünəndə ayıq olaq,
Oyaq olaq, arxeoloq.
İşimizlə elimizə
Dayaq olaq, arxa olaq…

## ORAQ

Taxil biçir biçinçi,
Hər sünbül bir çörəkdir.
Kombayn olan yerdə
Oraq nəyə gərəkdir?

Bir zaman çox iş görüb,
Əyri orağımız da.
Oraq şəkli var idi
Bir vaxt bayrağımızda.

Bizim oraq sevgimiz
İndi bir az kiçilib.
Əyri oraqla bir vaxt
Düz zəmilər biçilib.

İndi muzeyə düşüb
O, əyri orağımız.
Ay-ulduzla süslənib,
Üçrəngli bayrağımız.

## KAMANÇA KÖKLƏNƏNDƏ

Kamança köklənəndə
Dedi balaca Mirzə:
- Qulağın çəkilməmiş
Niyə baxmıran sözə?





## ARAZ ÜSTÜNDƏ KÖRPÜ

Əlimin zəhmətinə
Dedi Xuda: - Afərin!
Gözəl bir körpü saldım,
Adı da Xudafərin…

Araz üstündə necə
Kədərli durub gör bir!
Üstündən keçən yoxdu,
Göz dağıdı bu körpü…

O taydan bəri baxıb,
Sən çəkirsən hər gün ah.
Nə ah-uf eləyirsən,
Səndə, məndədir günah…

## ARZULAMALAR

Bənzəyəsən həmişə
Çiçəyə sən, gülə sən.
Ay bala, ömrün boyu
Sevinəsən, güləsən.

Dost olasan mərd ilə,
Qalasan el dərdinə.
Ucaldıqca göylərə
Güvənəsən elə sən.

Tez-tez çıxasan yola,
Hər kənddə evin ola.
Sevincini, qəmini
Dostlarınla böləsən.

Aydan arı olasan,
Elin yarı olasan.
Xoşbəxtəm, öz işinlə
Ruhumu şad eləsən.

Nurlu mayak olasan,
Elə dayaq olasan.
Çətinliyə düşənin
Köməyinə gələsən.

Qismətin gülüş ola,
Saçların gümüş ola.
Ölüm haqdır, öləndə
Kişi kimi öləsən.

## OXŞAMA

**Ay uşaq, bir qaçsana,
Quş tək qanad açsana!
Beşiyi tərk etsənə,
Quşları hürkütsənə!
Çiçəkləri üzsənə,
Çəmənlərdə gəzsənə!
Qədəmlərin mübarək!
Gül, açılsın gül-çiçək.
Nəğmə desin bulaqlar,
Qoy əl çalsın yarpaqlar.
Daş at, düşsün ulduzlar,
Yığsın oğlanlar, qızlar.
Yüyür, atan şad olsun,
Qəlbim sevinclə dolsun!**

